# Şanlı qələbə tariximizdən üç il ötdü

*(Yazıçının qələbə dastanımızdan I yazı)*



Bu qələbəni biz 1993-cü ildən, dahi rəhbər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi vaxtdan gözləyirdik. Amma onu da bilirdik ki, bu, mümkün deyil. Çünki düşmənlərimizin arxasında ABŞ, Rusiya, İran, Fransa kimi çox güclü, qüvvətli dövlətlər dayanmışdı. Hətta keçmiş Sovetlər Birliyi respublikaları arasında Amerika ən böyük səfirliyini də məhz İrəvanda açmışdı. On beşdən artıq aparıcı dövlət də ermənilərə köməklik edir və "züy" tuturdular. Ulu Öndərin uzaqgörən siyasəti o oldu ki, atşkəs yaratdı və böyük tarixi hadisə olan- Bakı-Tiflis- Ceyhan neft kəmərini reallaşdırdı. Beləliklə, bu tarixi hadisə ilə dünyanın ən aparıcı ölkələrini iqtisadi cəhətdən Odlar yurduna yaxın və asılı etdi. Hətta bir vaxtlar Türk sərkərdələri əllərində silah bütün türkdilli xalqları birləşdirmək istəsələr də bu, onlara nəsib olmadı. Amma uzaqgörən siyasətçi Heydər Əliyev atalarımızın bu məsələni özünə ali məqsəd kimi götürüb,"Ağıl olan yerdə gücə heç bir hacət yoxdur" kəlamı ilə bütün türkdilli xalqları iqtisadi cəhətdən birləşdirdi. Artıq Orta Asiya ölkələri həm netf, həm qaz və həm də başqa məhsullarını Xəzər dənizi vasitəsilə Azərbaycana daşıyır və bütün dünyaya bu məmləkətdən İpək yolu vasitəsilə yola salırlar. Deməli, Ulu Öndərin bir vaxtlar fikirləşdiyi və arzusunda olduğu Turan Dövlətlər Birliyi artıq yaranır və tezliklə bütövlükdə reallaşacaq.



Bax, otuz il bundan qabaq dahi rəhbər Heydər Əliyevin dediyi: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı cənab prezidentimiz İlham Əliyev tərəfindən tam reallaşandan sonra o, dahi rəhbərin bu ideyasını da həyata keçirdi: "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır". Və sülh yolu ilə torpaqlarımızı geri qaytarmaq istədi. Amma düşmənlərimiz bununla razılaşmadılar. Ona görə də ölkə başçımız ordu quruculuğunda da işləri sürətlə reallaşdırdı. Ermənilər elə fikirləşirdilər ki, çox güclüdürlər və əvvəlki kimi keçmiş havadarları onlara necə lazımdırsa köməklik edəcək.

Azərbaycan ordusunun silahlanmasının qarşısını almaq məqsədilə 2020-ci ilin sentyabr ayının 27-də bizə mühadribə elan etməmiş hücuma keçdilər. Məhz bu məqsədlə hücuma keçdilər ki, Azərbaycanı bütövlükdə işğal eləsinlər. Artıq gəlib Bakıda otursunlar və "dənizdən-dənizə Ermənistan" arzularını reallaşdırsınlar. Amma az bir vaxtda "daş-qayaya" rast gəldi. Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi, uzaqgörən siyasəti və böyük məntiqi sayəsində bir neçə saata müharibədə üstünlüyü ələ aldı və 44 günə düşməni məhv elədi. Ermənilərin arxasında dayanan dövlətlər fikirləşib, onlara kömək etməyə hazırlaşdığı vaxta qədər biz məmləkətimizin tacı olan Şuşanı cəmi iki günə düşmənlərdən təmizləməklə qələbə təbilini çaldıq. Şuşanın azad olunmasından sonra ermənilər və onların havadarları şoka düşdülər. Azərbaycan ordusunun artıq Xankəndinə gəldiyini görüb, öz şəxsi maşınlarına minib Kəlbəcər yolu ilə Ermənistana qaçmağa başladılar. Ermənilər atəşkəs elan eləyibXankəndini, Xocalını, Əsgəranı, Ağdərənin və Xocavəndin bir hissəsini əllərində saxlaya bildilər. Bundan sonra "qarının tumanbağı" məsələsini əsas götürüb yenidən bizə hücum etməyə hazırlaşdılar. Və 2023-cü ilin sentyabr ayının 19-da apardığımız 24 saatlıq lokal xarakterli müharibədən sonra ağ bayraq qaldırmağa məcbur oldular. Cənab prezidentimiz, Ali Baş Komandan İlham Əliyev böyük qürurla Əsgəranda, Ağdərədə, Xocavənddə, Xankəndidə, Xocalıda üç rəngli bayrağımızı ucaltdı. Beləliklə, məmləkətimizin tacı olan Qarabağ artıq 2023-cü il oktyabrın 15-dən düşmənlərdən tam azad oldu. **İndi hər birimiz böyük qürurla deyə bilirik ki, " Böyük Zəfər qazanmış qalib məmləkətik! Qalib xalqıq"**

**Zəfərimizlə bağlı ölkəmizin ayrı-ayrı yerlərindən** olan ziyalılarımıza müraciət etdim. Onların fikirlərini yazdım. Bu yazımda buyurun, onlardan birinin fikirləri ilə tanış olun:

**İlk həmsöhbətim Sumqayıt şəhərindəki Təfəkkür Liseyinin direktoru Qönçə Səftərovadır.**

**Qısa arayış:** Qönçə xanım Sumqayıtda doğulub və böyüyüb. Orta təhsilini də bu şəhərdə, Təbiət elmləri təmayüllü gimnaziyada alıb. Azərbaycan Dövlət Xarici Dillər Universitetini bitirəndən sonra da Sumqayıt şəhəri, 1 nömrəli tam orta məktəbdə müəllim işləyib. İyirmi yaşından pedaqoji işlə məşğul olur. Artıq yeddi ildir ki, Təfəkkür Liseyinin direktorudur. Bu liseyi şəhərin ən aparıcı məktəblərindən biri edib. Çox yüksək ixtisaslı ingilis dili müəllimidir. 2002-ci ildən YAP-ın üzvüdür. Onun bütün fəaliyyəti dövlətimiz və dövlətçiliyimizlə bağlıdır. Hətta yadıma gəlir ki, Vətən müharibəsi dövründə mən Qönçə müəllimədən bir müsahibə götürmüşdüm. O, belə maraqlı sözlər demişdi : "Üzr istəyirəm. Oğlum yoxdur ki, müharibəyə göndərim. Həyat yoldaşımın səhhətində problemlər var. Atam da yaşlıdır. Mən əlimdən gələni elədim ki, bu dövlət və xalq qarşısında xəcalətli olmayım. Özüm və müəllimlərimiz əmək haqqımızın böyük bir hissəsini Qələbə Fonduna keçirdik ki, həmin vəsaitlə silah-sursat alınsın. Təkcə özüm işlədiyim məktəbdən yox, mənə yaxın olan digər məktəb direktorlarıyla birləşib bu xeyirxah işi gördük. Çox sevinirəm ki, biz qalib olduq və dünya xalqlarına nəyə qadir olduğumuzu sübut elədik".

Həmin vaxt Qönçə müəllimənin dediyi bu sözlər oxucular tərəfindən də böyük rəğbətlə qarşılanmışdı.

**İndi biz, yenidən Qönçə müəllimə ilə həmsöhbət olduq. Zəfər günümüzlə bağlı Qönçə müəllimənin dedikləri:**

- Orta məktəbdə təhsil alarkən görürdüm ki, qara hərflərlə yazılan nə qədər tarixi günlərimiz var. Və bu tarixi günləri, qan yaddaşını böyük niskilliklə keçirirdik. Heç birimizin də ağlına gəlmirdi ki, bu qara günlər, nə vaxtsa qələbə günlərilə əvəz oluna bilər. Amma qələbəmiz bütövlükdə reallaşdı. Müqəddəs Qarabağ torpağımız düşmənlərdən azad olundu. Qələbəmizin şahidi olduq. Hətta 2023-cü il noyabrın 7-də Xankəndidə hərbi parad da keçirdik. Hər birimiz bunu böyük qürurla izlədik.

Hazırda biz bir vaxtlar işğal olunan rayonlarımızın, şəhərlərimizin - Qubadlı, Füzulu, Cəbrayıl, Zəngilan, Ağoğlan, Ağdam, Kəlbəcər, Laçının azad olunma günlərini qeyd edirik. Hər il oktyabrın 15-də Əsgəran, Ağdərə, Xocavənd, Xocalı, Xankəndi günlərini də keçirəcəyik. Fəxr edirik ki, qalib ölkənin vətəndaşlarıyıq. Bir müəllim-pedaqoq üçün şagirdləri qürur hissiylə böyütmək şərəfdir, xoşbəxtlikdir. Artıq üç ildir ki, xalqımızda böyük milli birlik yaranıb.

Vurğulayım ki, indi biz liseyimizdə hədsiz həvəslə, coşqu ilə çoxlu tədbir keçiririk. Bu tədbirlərdə şəhid ailələrinin üzvləri, qazilərimiz də iştirak edirlər. Onların evlərinə də gedirik. Uşaqlarımız azad olunan müqəddəs yerləri gedib görməyib. Baxmayaraq ki, nənəm şuşalıdır və mən özüm də o torpaqlarda olmamışam. Amma böyük həvəslə həmin yerlərə getməyə can atırıq. Hətta lisey müəllimlərimizlə bu haqda söhbət də etmişik. Yəqin ki, bu arzumuzu tezliklə reallaşdıracağıq. O zaman elə ilk təəssüratlarımı da sizinlə bölüşəcəyəm. Söz yox ki, Qarabağımız haqqında, buranın florası, faunası, təbiəti, çayları, meşələri, tarixi yerləri barədə şagirdlərimizə geniş məlumatlar veririk. Gözəl slaydlar göstəririk. Amma hər dəfə uşaqlarımız soruşur: "Qönçə müəllimə, ora nə vaxt gedəcəyik?" Mən isə inamla deyirəm ki, tezliklə gedəcəyik. Bəli, həqiqətən də Qarabağ Azərbaycanımızın baş tacıdır. Onu göz bəbəyimiz kimi qorumalıyıq! Böyük şairimiz Xəlil Rza Ulutürk deyib ki:

*Vətəndaş olmasa boş şeydir Vətən!*
*Beş günlük, on günlük güney qarıdır.*
*Vətən məfhumunun özəyindəki,*
*Vətənin vüqarlı oğullarıdır!*

**Bir vaxtlar dərslərindən kafi qiymət alan şagirdlərimiz Vətən müharibəsində igidlik göstərdilər, Qarabağda əla qiymətli böyük tarix yazdılar. Mən bir ziyalı kimi bu vüqarlı, cəsur, igid oğullarımızla fəxr edirəm!**

**Ağalar İDRİSOĞLU,**
**Əməkdar incəsənət xadimi,**
**yazıçı-rejissor**